# Münaqişələrin yaranmasına müəllim və şagirdlərin qarşılıqlı münasibətlərinin təsiri

**Gülşən Eminova**
*ADPU-nun baş müəllimi*

**Rəyçilər:** ped.ü.e.d., prof. L.N. Qasımova,
ped.ü.f.d. L.X. Əliyeva

**Açar sözlər:** müəllim, şagird, emosional
**Ключевые слова:** учитель, ученик, эмоциональный
**Key words:** teacher, student, emotional

Müəllim-şagird ünsiyyəti pedaqoji prosesin mühüm tərkib hissələrindən biridir. Ünsiyyətin düzgün, yüksək formada qurulması şagird şəxsiyyətinin formalaşmasına əsaslı təsir göstərir. Şagird şəxsiyyətinin formalaşmasında isə müəllim və şagirdlərin qarşılıqlı ünsiyyəti böyük rol oynayır. Prof. H.Ə. Əlizadə yazırdı: "Şagirdə etibar və inamla yanaşmaq, bir şəxsiyyət kimi onun məqsədləri, tələbatları və mənafeyi ilə hesablaşmaq – məhz bu keyfiyyətlər müəllimlərin şagirdlərlə münasibətlərinə nurlu insani çalarlar bəxş edir. Müəllim bir şəxsiyyət kimi şagirdlərin ona münasibətlərində yaşayır".

Qarşılıqlı münasibətlər yaxşılıq, işgüzar, rəsmi (formal), qeyri-rəsmi tiplərə ayrılır. Müəllim-şagird qarşılıqlı münasibətlərində yaxınlıq da münaqişələrin yaranmasına səbəb ola bilir. Yaxınlıq da bir neçə istiqamətdə səciyyələnir: 1) şagird öz şəxsi işlərinin yardımçısı kimi yaxındır; 2) ailələr arasında münasibətlər baxımından yaxındır; 3) yaxınlarının tapşırılması ilə bağlı yaxındır.

Şagirdini tanıyan və ya onlarla ailəvi yaxın olan müəllim sinifdə sanki onun varlığını duyur, istər dərsi danışarkən, istər suallar verərkən, istərsə də dərsi soruşarkən əsas yerə tanış şagirdini qoyur. Bu isə sinifdə qısqanclıq hisslərinin yaranmasına səbəb olur. Şagirdlərlə "yaxın" şagird arasında münasibətlər pozulur, müəllim isə buna xoşagəlməyən don geyindirir.

Müəllim pedaqoji prosesdə böyük qüvvə olduğundan o şagirdlərlə ünsiyyətdə heç bir səhvə yol verə bilməz. Cəmiyyətin tələbatlarına müvafiq olaraq təhsil sistemində həyata keçirilən islahatlar da müəllimlərin şagirdlərlə qarşılıqlı münasibətlərinin düzgün qurulmasını gündəmə gətirir. Çünki tərbiyə prosesinə tərbiyə edənlərin və tərbiyə olunanların birgə işgüzar fəaliyyəti kimi baxılır. Bu isə müəllim və şagirdlərin özünü inkişaf etdirməsi, özünütəkmilləşdirməsi, özünütəsdiqləməsi üçün geniş şərait yaratmış olur.

Müəllim və şagirdlərlə qarşılıqlı münasibətlər onların birgə fəaliyyətində - iməcilikdə, ictimai-faydalı işlərin yerinə yetirilməsində formalaşır. Çox halda bu fəaliyyət işgüzar iş kimi də xarakterizə olunur. Belə proses də bəzi hallarda müəllim-şagird münaqişəsinin yaranmasına səbəb ola bilir. Belə ki, müəllim şagirdlərlə birlikdə sinfi qaydaya salır, güllərə su verir və s. Bütün şagirdlər müəllimlə birgə işləmələrinə, səliqə-sahman yaratmalarına sevinir. Leyla adlı qız isə eqaistcəsinə: işləyin-işləyin, sizə "pul çox yazacağam" deyir. Bütün şagirdlər gülüşür. Müəllim qızlara acıqlanır və işə cəlb etmək istəyir. Leyla işləməkdən boyun qaçırır: "Mən heç evdə iş görmürəm", - deyir. Müəllim Leylaya cəza vermək istəyir. Elə buradan da münaqişələr özünü təzahür etdirir.

Göründüyü kimi, işgüzar qarşılıqlı münasibətdə də münaqişələrin yaranmasını gözləmək olar. Müəllim belə halda şagirdinə təsir etmə tərzini dəyişməli, onun xarakterinə uyğun yol

tapmalıdır.

Məktəbdə ideal şagird olmadığı kimi, ideal müəllim də tapmaq çətindir. Bəzən müəllim şagirdi sinif jurnalının gətirilməsi ardınca göndərir və ya şəxsi işlərin yazılmasında xətti yaxşı olan şagirdinin gücündən istifadə edir. Bu zaman müəllim rəsmi mövqe göstərir və rəsmi sənədləri haqda onlara məlumat verir. Şagird öz funksiyasını bilməsindən asılı olmayaraq bəzən tədris jurnalında özünə və ya yaxın rəfiqəsinə (dostuna) yüksək qiymət yazır. Bu cür hallar da münaqişənin yaranması ilə nəticələnə bilir.

Qeyri-rəsmi münasibətlər subyektiv xarakter daşımaqla onların bir-birlərinə olan hörmətlərində, simpatiyalarında, antipatiyalarında ifadə olunur. Simpatiya, hörmət, şagirdlərin müəllimə və ya müəllimin şagirdlərə xoş münasibəti pozitiv mövqeyi ilə səciyyələnir. Antipatiya hissləri ilə bir-biri ilə ünsiyyət quran müəllim və şagirdlər bir-birlərinə qarşı mənfi fikirlərini büruzə verə bilirlər. Bu da daim onlar arasında münaqişələrin yaranması ehtimalını artırır. Qeyri-rəsmi münasibətlər heç kəs – nə müəllim, nə də şagird tərəfindən müəyyən edilir. O, hadisələrin gedişində, bir-birlərini duyub qavramadıqda özünü təzahür etdirir. Belə şəraitdə həm müəllim, həm də şagird kollektivi gərgin olur. şagirdlərin inkişaf və formalaşmasını bu cür şəraitdə gözləmək olmaz. Professorlar Ə.S. Bayramovvə Ə.Ə. Əlizadə "Sosial psixologiya" dərsliklərində bu problemin mahiyyətini açır və maraqlı nümunələrlə fikirlərini əsaslandırırlar. Onlar yazırlar: "Qeyri-rəsmi və rəsmi ünsiyyət bir-birlərindən fərqlənirlər. Onların bir-birindən əsas fərqi bundan ibarətdir ki, qeyri-formal ünsiyyətə nəzərən formal ünsiyyət rəsmi qaydalarla məhdudlaşdırılır. İşdə direktorlarla müəllimin, sinifdə müəllimlə şagirdin ünsiyyət tərzinə fikir versəniz, bunu asanlıqla görmək olar". Sonra müəlliflər aşağıdakı misalla fikirlərini ümumiləşdirirlər. "...adam bir dostunu görən kimi ondan məsələn soruşa bilər: gözlərin qızarıb, deyəsən bu axşam yaxşı yatmamısan". Halbuki, avtobusda bu və ya digər sərnişinə həmin sualla müraciət etmək, öz şəxsi həyatı haqqında məlumat vermək və s. olmaz. Avtobusda "zəhmət olmasa yol verin, buyurun", "bağışlayın, buyurun və ya keçin" tipli formal ünsiyyət tərzi daha çox məqbul sayılır.

Prof. M.Ə. Həmzəyev və dos. S. Əmirasnalova qeyd edirlər ki, qeyri-rəsmi ünsiyyət rəsmi ünsiyyətdən ən çox ona görə fərqlənir ki, bu zaman ünsiyyət rəsmi qaydalarla məhdudlaşdırılmır. Lakin qeyri-rəsmi ünsiyyətin müxtəlif formalarında da qarşılıqlı münasibətin xarakterindən asılı olaraq insanlar arasında müəyyən psixoloji məsafə gözlənilir.

Müəllim-şagird münasibətlərində ünsiyyət qurmaq mədəniyyətinin böyük rolu vardır. Bu ünsiyyət münaqişələrə yol açmır və ya münaqişələr bunun içərisində məhv olub gedir. Müəllim şagirdləri səmimi, təmkinli rəftarı ilə özünə ram edə bilir. Professorlar Ə.S. Bayramov, Ə.Ə. Əlizadə ünsiyyət mədəniyyətinin əhəmiyyətindən bəhs edərək göstərirlər ki, "...Ünsiyyət mədəniyyəti insan münasibətlərinin daxili gözəlliyində öz ifadəsini tapır. Nəzakətlilik, təmkinlilik, mehribanlıq, xeyirxahlıq, bir-birini dinləmək bacarığı, onun zövqünə, fikirlərinə, ovqatına hörmətlə yanaşmaq, sevinc və kədərini anlamaq, dərdinə şərik olmaq – bunlar ünsiyyət mədəniyyətinin əlifbasıdır. Bu əlifbanı mənimsəmədən ünsiyyəti əsl mənada qurmaq mümkün deyildir". Qeyd edilənlərə rəğmən deyə bilərik ki, ünsiyyət mədəniyyətinə daxil olan əlamətlər bütövlükdə əxlaqi münasibətlərdir. Əxlaqi münasibətlər isə o zaman özünü təzahür etdirir ki, müəllimdə hər şey tənzimləmə və nəzarətdə olur və o da konkret vəzifələri yerinə yetirən əxlaqi qiymətə əsaslanır. Müəllimin yüksək mədəniyyəti şagirdlərinin onu sevməsinə yol açır. Əslində şagirdlər o müəllimi sevirlər ki, şagirdinə qarşı səmimi, qayğıkeş, humanist rəftar edir. Müəllimi sözün əsl mənasında müəllim kimi qəbul edən şagirdlərlə müəllim arasında münaqişə üçün səbəb azalır.

Müşahidələr göstərir ki, məktəbdə uzun illər dərs deməsinə baxmayaraq hələ də elə

müəllimlər vardır ki, onlar şagirdə şəxsiyyət kimi baxmır, rəftarlarında kobudluğa yol verirlər. Təbiidir ki, belə xarakterli müəllimlərlə şagirdlər arasında münaqişə daim yaşayacaqdır. Görkəmli pedaqoqlar V.İ. Pisarenko və İ.Y. Pisarenko "Pedaqoji etika" əsərində göstərirlər ki, "Şagirdlərə müraciətində kobudluğa yol verən, onların mənliyini təhqir edən müəllim şagirdlər arasında nüfuzdan istifadə edə bilməz. Uşaqlar belə müəllimə hətta tabe olduqda belə, münasibətlərində fəal müqavimət göstərirlər. Demək, müəllimin şagirdlər tərəfindən necə qavranılmasından asılı olaraq, sonrakı fəallığı onu dəyişdirmir, onlarla yaranan münaqişələr zəifləsə də sönə bilmir.

Aparılan araşdırmalar göstərir ki, yeniyetmə yaş mürəkkəb məzmuna malik olduğu kimi qavradıqları hər hansı bir işi çətin də yaddan çıxara bilirlər. Peşəyə maraq, fənnə maraq bu yaş üçün xarakterik olanlardandır. Onların hər hansı bir fənni sevməsi, ona maraq göstərməsi həmin fənni tədris edən müəllimi ilə çox bağlıdır. Demək fənni sevmək, müəllimi sevməklə də ölçülə bilir. Bəzən müəllimin kobud rəftarı, uşaqlara diqqətsizliyi şagirdlərdə onun dərsinə, hətta tədris etdiyi fənnə də nifrəti artır, münasibəti dəyişir. Bu zaman şagird yeni müəllim axtarır və ya həmin peşəni özündən uzaqlaşdırmalı olur, müəllimlə şagird arasında gərginlik yaranır, bir-birləri ilə dil tapa bilmirlər. IX sinif şagirdləri belə münaqişələrə daha çox meyl edənlər sırasına daxildir.

Tədqiqatlar göstərir ki, o müəllimlərlə şagirdlər arasında münaqişələr o zaman yaranmır ki:

— Uşaqların daxili aləmini dərk etsin;
— Uşaqlara sevgi və məhəbbətlə yanaşsın;
— Şagirdlərin maraqlarını nəzərə alsın;
— Sözü ilə işi arasında vəhdət olsun;
— Ədalətli və obyektiv olsun;
— Yüksək əxlaqi keyfiyyətlərə malik olsun;
— Şagirdlərlə valideyn və övlad münasibətində olsun və s.

Bütün bu qeyd olunanlar nəinki müəllim-şagird münaqişələrinin yaranmasına imkan vermir, eyni zamanda təlim-tərbiyənin səmərəliliyinə əsaslı təsir göstərmiş olur.

Pedaqoji ünsiyyət xarakteri baxımından müəllim-şagird münasibətlərinə təsir göstərir. Bəzən ünsiyyət prosesi münaqişələrlə müşayət olunur və müəllim-şagird münasibətində neqativ hallar yarada bilir. Aparılan tədqiqatlardan məlum olur ki, müəllim-şagird münaqişəsinin yaranması səbəbləri çoxdur, bunlardan biri də məna maneəsidir. Bu mahiyyət etibarilə müəllimlə şagirdlərin bir-birini anlaya bilməməsindən ibarətdir. Bəzən elə hallar olur ki, müəllim şagirdlərin tələbini başa düşdüyü halda ona biganə qalır, onların tələbini qəbul etmək istəmir. Bu isə o səbəbdən yaranır ki, belə vəziyyət müəllimin xüsusiyyətinə yaddır. Bəzən hər iki tərəfin baş vermiş hər hansı bir hadisəyə verdikləri məna uyğun gəlmir, fərqli baxışlar təzahür edir və bu məna maneəsi şagirdlər arasında da münaqişələrin yaranmasına səbəb ola bilir. Məna maneəsi müəllimin qarşısında duran tələbdən asılı olmayaraq şagirdə münasibətdə və ya tələbin kim tərəfindən irəli sürülməsindən asılı olmayaraq tələbə münasibətdə özünü təzahür etdirir. Məsələn, müəllim şagirdin hərəkətinin, davranışının mahiyyətinə varmadan onu qeyri-obyektiv cəzalandırdıqda şagirddə həmin müəllimə qarşı kin və ya məna maneəsi yaranır. Bundan sonra müəllim nə qədər obyektiv olsa da, öz hərəkətinə görə şagirdlərə səhvini etiraf etsə də şagird bu kindən, məna maneəsindən yaxa qurtara bilmir. Dos. Ə.S. Sarıyev "Müəllim-şagird münasibətləri" haqqında əsərində göstərir ki, "...Şagirdlərin qəlbi kövrək olur. o, ədalətsizliyə, xüsusilə də müəllimin ədalətsiz münasibətinə dözə bilmir. Belə vəziyyətin yaranmaması üçün müəllim şagirdin ən kiçik qüsuruna, xoşagəlməz davranışına obyektiv, ədalətli münasibət bəsləməlidir. Məna maneəsi

müəllim tərəfindən tələbin dəfələrlə irəli sürülməsi səbəbindən də əmələ gələ bilir. Heç bir müsbət nəticə əldə etməyən müəllim eyni tələbi yenə də dəfələrlə irəli sürür. Şagirdlər müəllimin belə tələblərinə alışdıqları üçün ona əhəmiyyət vermir, müəllimin dediklərini eşitməyə can belə atmırlar". Məsələn, müəllimin təşkilatçılıq qabiliyyətinin zəif olduğunu bilən şagird onun "qulaq asın" sözünə əhəmiyyət vermir. Hər dərsində əsəbi halda qeyd edilən sözü qışqırsa da şagirdlər onu eşitmirlər. Çünki hər dərsdə eyni sözün deyilməsi şagirdin müəllimə və dərsə laqeyd münasibət bəsləməsinə gətirib çıxarır. Təcrübələr göstərir ki, hər cür məna maneələri müəllim-şagird münaqişəsinin yaranmasına səbəb ola bilir.

Müəllim-şagird münaqişəsinin yaranma səbəblərindən biri də müəllimin sözü ilə işi arasında uyğunsuzluğun olmasıdır. Tədqiqatdan məlum olur ki, verdiyi tapşırığı yoxlayacağı haqda fikrini dönə-dönə şagirdlərə bildirən müəllim bu sözünü həyata keçirmək haqda düşünmür. Şagird isə müəllimin sözündə həqiqətin olduğuna inanmır. Tapşırılan işə diqqət yetirmir və ya əhəmiyyət vermir. Təsadüfən  müəllim verdiyi tapşırığın nəticəsini yoxlamaq qərarına gəldikdə şagirdlər tərəfindən ona əməl olunmadığı məlum olur. Müəllim nə edəcəyini bilmir. Şagird isə "Siz heç vaxt dediyiniz sözə əməl etmirsiniz" – deyir. Artıq müəllimin bu hərəkəti münaqişəyə yol açmış hesab olunur. Fikrimizi IX sinifdə yaranan münaqişənin səbəbini izah etməklə təsdiq edək.

Müəllim şagirdlərə dərsdən sonra onları muzeyə aparacağını bildirir. Bütün şagirdlər məktəbin həyətində müəllimi gözləyirlər. Vaxtdan 40 dəqiqə keçməsinə baxmayaraq müəllim görünmür. Sinif nümayəndəsi müəllimlər otağına qalxır. Məlum olur ki, müəllim zəng olan kimi evinə getmişdir. Ertəsi gün müəllimlə şagirdlərin xoşagəlməz sözləri oldu:

— Müəllim biz sizi 40 dəqiqə gözlədik. Siz isə sözünüzə əməl etmədiniz.

— Hə olar, şagird müəllimini gözləyər də. Burada nə qəbahət vardı. Gəlməmişəm, siz də çıxıb gedərdiniz.

— Müəllim, bizə xəbər edərdiniz, biz də sizi gözləməzdik.

— Diliniz çox uzundur. Artıq söz lazım deyil. Aparmadım-aparmadım da, burada şişirdiləcək heç nə görmürəm.

Müəllim-şagird sözlərindən göründü ki, bu münaqişə davamlı olacaqdı və belə də oldu. Şagirdlər müəllimin verdiyi sözə əməl etməməsini, onları saya salmamamısını qəbul edə bilmədiklərindən uzun müddət müəllimin dərsində nizam-intizam bərpa oluna bilmədi. Bir-birindən yaranan yeni münaqişələr, daha doğrusu münaqişələr toplusu özünü təzahür etdirdi.

Müəllimin sözü ilə işi (əməli) arasında vəhdətin olması şagirdlərdə müəllimə xoş münasibətdən başqa heç nə gətirə bilmir. Şagird müəlliminə çox inanır, onun sözünü qanun kimi qəbul etməyə çalışır.

Təsadüfi deyildir ki, Y.A. Komenski müəllimi gah fəal heykəltəraş ilə, gah ağıl zülmətini dağıtmağa, bütün fikirlər və əməllər üzərinə işıq saçmağa ehtirasla can atan saf və sədaqətli maarif xadimi ilə, gah hər gün gözü hər tərəfdən işıqlandıran günəşlə, gah da böyük axar çayla müqayisə edir, məktəbi insanlıq emalatxanası, müəllimi isə kamil ustad adlandırırdı.

Müəllimin sözü və əməli şagirdin düşüncəsinin mərkəzində dayanır. Şagird hər şeydən, hamıdan çox müəllimini istəyir. Ona görə də onların müəllimə inamını parçalamaq olmaz. N.A. Dobrolyubov yazırdı: "Müəllim şagird üçün heyranedici təəccüb oyadan bəşəri kamilliyin ali nümunəsidir. Kiçik bir qız öz kitabında ətraflı karandaşla dövrəyə alınmış yeri nəvazişlə mənə göstərərək dedi: bax, bizim müəllim barmağı ilə bura toxunmuşdu".

Münaqişənin yaranma səbəblərindən biri də müəllimin emosional vəziyyətini idarə edə bilməməsidir.

Bildiyimiz kimi, sinif müəllimlə şagirdin açıq ünsiyyət məkanıdır. Müəllimin sinifdə

emosional vəziyyətini idarə edə bilməməsi onun bilik və bacarıqlarının artırılması zərurətini yaradır. Emosional vəziyyətini tənzimləyə bilməyən müəllim şagirdləri idarə etməyi də bacara bilməz. Məsələn, müəllim dərs keçdiyi zaman arxada oturan şagirdin telefonla oynadığını görür. Müəllim heç bir səbrlilik göstərmədən şagirdin üstünə qışqırır və əsəbi onun yanına gedir. Bütün şagirdlər müəllimin qışqırığından diksinir və nə baş verdiyini öyrənmək üçün bir-birlərinə suallar verirlər. Müəllim onların da üstünə qışqırır. Şagirdlər "bizə niyə qışqırırsınız, biz nə etmişik axı". Uşaqlar müəllimin hərəkətinin cavabını öyrənməmiş yeni əsəbiliklə rastlaşırlar. Pedaqoji proses pozulur, dərs gərgin söz-söhbətin qurbanına çevrilir. Təbiidir ki, münaqişə davamlı və dəyişməz olur. Əgər müəllim pedaqoji ustalığa malik olsa idi, o, sinifdə qışqırmaz və tələbələrlə öz arasında gərginlik yaşatmazdı.

Emosionallıq bəzən insan xarakterinin təzahür forması kimi də səciyyələnə bilir. Çünki müəllimin emosionallığı onun idrakının məhsuludur. Emosional vəziyyəti tənzimləmək üçün müəllim ilk növbədə iradəsini möhkəmləndirməli və hisslərini tərbiyə etməyi bacarmalıdırlar. Prof. N.M. Kazımov yazır: "Hiss və həyəcanları idarə edə bilməmək hisslərin şüura üstün gəldiyini göstərir".

Münaqişənin yaranma səbəblərindən biri də sinifdə sağlam psixoloji iqlimin olmamasıdır. Bəzən məktəbdə elə siniflər olur ki, onların birində intizamlı, digərində isə intizamı yerində olmayan şagirdlər olur. Təbii ki, bütün şagirdlər belə olmur, amma çoxluq təşkil edir. Səsli-küylü, bir-birini dinləməyən və yola getməyən şagirdlərdən ibarət sinifdə sağlam psixoloji iqlim ola bilməz. Son dövrlərdə aparılan tədqiqatlar da sübut edir ki, yeniyetmələr arasında papirosa, oğurluğa, bıçaq gəzdirməyə həvəsli olanlar vardır. Belə yeniyetmələrdən ibarət olan sinifdə sağlam psixoloji iqlim də ola bilməz. Ona görə də bu sinifdə dərs aparan müəllimlə şagirdlər arasında daim münaqişələr hökm sürməkdədir. Onların nəinki təlimə, hətta şagird yoldaşlarına belə münasibəti neqativdir. Belə halda şagirdlə müəllimin pozitiv münasibət zəruridir.

**Məqalənin aktuallığı**. Münaqişələrin yaranmasına müəllim və şagirdlərin qarşılıqlı münasibətlərinin təsiri məsələlərinin nəzəri əsaslarının təhlilindən ibarətdir. Bu proses zamanı psixoloji amillərin müəyyənləşdirilməsi və nəzərə alınması mühüm şərtlərdəndir.

**Məqalənin elmi yeniliyi.** Müəllim və yeniyetmələrlə ünsiyyəti zamanı yaranan münaqişələrin səbəbləri, pedaqoji-psixoloji inkişaf xüsusiyyətlərinin öyrənilməsi baxımından bu problemin tədqiqinə az rast gəlinir. Bu baxımdan mövzunun işlənilməsi elimdə yüksək dəyərləndirilməlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə pedaqoji təmayüllü orta ixtisas, ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər

## Ədəbiyyat


1. Ə. Bayramov, H. Əlizadə. Sosial psixologiya. 2007.
2. V.İ. Pisarenko, İ.Y. Pisarenko. Pedaqoji etika . 2010.
3. A. Nəzərov, R. Məmmədov. "Pedaqoji ustalıq. Bakı, 2008.
4. Həsənov A.M, Ağayev Ə.Ə. Pedaqogika. Bakı, 2007.
5. F.N. Hüseynov, R.L. Hüseynzadə. Pedaqogika. II cild. Bakı, 2012.

**Г. Еминова**

## Воздействие на взаимные конфликты созданные между учителем и учениками

### Резюме

Общение между учителем и учеником является важной частью педагогического процесса. Установка общения точно и на высоком уровне основательно влияет на формирование личности школьников. Эмоциональность может выступать в качестве выражения характера человека. Для того чтобы учитель уравновесил эмоциональный процесс, необходимо, чтобы он укрепил свою веру и смог воспитать свои чувства.

**G. Eminova**

## The important of conflicts of relation between teachers and students

### Summary

Teacher-student communication is one of the important part of the teaching process. The establishment of a high level of communication influence to the formation of a major impact on the personality of the student. Sometime emotionality can distinguish as a form of manifestation of human character. First of all teacher should be able to improve the will and educate filings to regulate the emotional state.

**Redaksiyaya daxil olub:** 16.02.2018